# HƏDİSİ-ŞƏRİFLƏRƏ GÖRƏ TİCARƏT MƏDƏNİYYƏTİ

**İbrahim QULİYEV,**
*Aİİ-nin İslamşünaslıq kafedrasının müəllimi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*quliyev.ibrahim.78@mail.ru*

***AÇAR SÖZLƏR:*** *hədis, mənbə, din, ticarət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *хадис, источник, религия, торговля.*
***KEY WORDS:*** *hadith, source, religion, trade.*

**Giriş**

Müasir cəmiyyətimizdə ticarət mədəniyyəti, alış-veriş əxlaqı son dərəcə aktuallıq kəsb etdiyindən hər bir müsəlmanın öz dininin qayda-qanunlarını öyrənməsi və bu qanunlar əsasında alış-veriş etməsi zərurəti ortaya çıxır. Belə olduğu təqdirdə ilahiyyatçıların mövzu ilə bağlı kitab və məqalələr yazması, müxtəlif məclislərdə xütbələr söyləməsi, çevrələrində olan insanlar arasında bu istiqamətdə təbliğat aparması vacibdir. Çünki hər bir müsəlman gündəlik həyatında bu və ya digər şəkildə satıcı, yaxud da alıcı rolunda çıxış edir. Deməli, ticarət mədəniyyətini düzgün şəkildə yaşayıb, təbliğ etmək üçün Uca Allahın bu mövzuda nazil etdiyi ayələri, Peyğəmbərimizin (s), onun Əhli-beytinin, sədaqətli səhabələrinin söz və davranışlarını əsas tutmalı, bu xətt üzrə də hərəkət etməliyik. Çünki cəmiyyətin sosial həyatında mühüm bir yerə sahib olan ticarət, alış-veriş mədəniyyəti yalnız bu mövzudakı dini qanunları bilmək və onlara əməl etməklə inkişaf etdirilə bilər.

Bütün bu qeyd edilənlərin fonunda onu da bildirmək istəyirik ki, məqalədə İslamda ticarət mədəniyyəti, alış-veriş edənlərin əxlaqı, satılan və alınan malların hökmləri, ticarətdə aldatmağın günahı və belə davrananların aqibəti, cəmiyyətlərin məhv olmasında ticarət ədəbinin pozulmasının mühüm amillərdən biri olması kimi mövzularla bağlı Məhəmməd peyğəmbər (s), onun Əhli-beyti və sədaqətli səhabələrinin söz və davranışlarından nümunələr, Qurani-Kərimdən ayələr və s. məsələlər öz əksini tapmışdır.

Bütün bunlarla yanaşı, ticarətdə pul qazanmaq üçün özünü günaha batırmağın, təhlükəyə atmağın yolverilməz olduğu vurğulanaraq, alış-veriş zamanı maddi imkanı zəif olanlara və maddi cəhətdən cəmiyyətin digər həssas təbəqələrinə qarşı xüsusi münasibət göstərilməsinin böyük savab sayıldığı da diqqətdən yayınmamışdır.

**1. Ticarətin dindəki əhəmiyyəti**

Ticarət ərəb mənşəli sözlərdən olub, hər hansı malın və ya əşyanın satılmasına və ya alınmasına təhrik edilməsi kimi başa düşülür. Qurani-Kərimdə bir neçə yerdə işlədilən "ticarət" sözü qeyd etdiyimiz mənadadır. Belə ki, Allah-Təala "Cümə" surəsinin 11-ci ayəsində belə buyurur: **"...(Ya Peyğəmbər!) De: "Allah dərgahında olan savab əyləncədən də, ticarətdən də xeyirlidir..."** [1].

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Şübhəsiz ki, hər bir ayənin doğru-düzgün şəkildə başa düşülməsi üçün onun nazil olma səbəbini (səbəbi-nüzulunu) araşdırmaq lazımdır. Belə ki, sözügedən ayəni təfsir edən əksər təfsirçilərə, o cümlədən Məhəmməd ibn Cərir ət-Təbəriyə (838-923) və Cəlaləddin əs-Süyutiyə (1445-1505) görə, bir cümə günü Peyğəmbər (s) minbərdə xütbə oxuyarkən Şamdan ərzaqla yüklənmiş bir karvanın gəldiyini xəbər verən təbil səsləri eşidilmişdi. O vaxt Mədinə əhalisi qıtlıqdan böyük əziyyət çəkirdi. Bunu eşidən camaat Peyğəmbəri (s) tərk edərək karvanın qabağına qaçmışdı. Görkəmli hədisşünas Məhəmməd bin İsmayıl əl-Buxarinin (810-870) "Səhihül-Buxari" əsərindəki nəqlinə görə (hədis № 4899), məsciddə cəmi 12 nəfər qalmışdı və Peyğəmbər (s) orada qalanlara belə buyurmuşdu: *"Əgər siz də onlarla birlikdə getsəydiniz və heç kəs qalmasaydı, bu vadi alovla dolardı"*.

Buradan aydın olur ki, Uca Allahın vacib buyurduğu bir əməli tərk edərək dünya malının ardınca getmək dinimizdə bəyənilmir. Məhz buna görə Allah-Təala belə insanları qınamışdır. Halbuki ticarət halal, bərəkətli və bol qazanclı yolların ən gözəlidir. Çünki ticarət peyğəmbərlərin məsləyidir. Peyğəmbərimiz (s) də qırx yaşına qədər ticarətlə məşğul olmuşdur. Səhabələrin də bir çoxu qazancını bu yolla təmin etmişdir. Dinimiz həyatımızın bütün sahələrində olduğu kimi, ticarət sahəsinə dair də bir sıra qaydalar müəyyənləşdirmişdir. Həmin qaydalara riayət edənlər bu dünyada böyük sərvət sahibi olmaqla yanaşı, həm də axirət həyatı üçün savab qazanırlar. Ticarət üçün müəyyən olunmuş ilkin qaydalardan biri, onun insanı Uca Allahın zikrindən, İslamın vacib etdiyi zəruri hökmlərin tərk edilməsindən uzaqlaşdırmamasıdır. Məhz bu məsələni xüsusi olaraq vurğulayan Allah-Təala "Tövbə" surəsinin 24-cü ayəsində belə buyurmuşdur: **"(Ya Rəsulum!) De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, qəbiləniz (qohumlarınız), qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihaddan daha əzizdirsə, Allahın əmri (əzabı) gəlincəyə qədər gözləyin. Allah fasiqləri doğru yola yönəltməz!"** [1].

Müqəddəs ayənin təfsiri onu göstərir ki, İslam ticarətin əleyhinə deyil, əksinə, insanları ticarətə təşviq edir. İmam Əlinin (ə) *"Ticarətə üz tutun! Çünki onda sizin üçün zənginlik vardır..."* buyurması İslamda ticarətin əhəmiyyətinə işarə edir [2, s.149]. Ancaq bu işlə məşğul olarkən qoyulan qaydalara, halal-harama diqqət yetirmək lazımdır. Alver edərkən nəyin bahasına olur-olsun pul qazanma hərisliyinə qapılmamaq, dürüst və etibarlı olmaq lazımdır. Yalnız bu halda maddi olaraq əldə etdiklərimiz bizə həm də mənəvi gəlir qazandırar. Dürüst və əmanətdar tacir şeytanın tələ və hiylələrinə aldanmır. Onun tərəzisi heç vaxt haram çəkmir, o, bir qram belə əskik verməmək üçün tərəzisində çox həssas olur. İnsanların sadəlövhlüyündən istifadə etmir, Allahdan qorxduğu üçün kimsəni aldatmır, malın yaxşısını göstərib pisini satmır. Yalan yerə and içmir, boşuna vəd vermir, müştərilərin xoş niyyətlərindən öz məqsədləri üçün faydalanmır. Belə satıcılar var-dövlətin çoxlu pulda deyil, bərəkətdə olduğuna inanır. Onlara "qazancım az olsun, amma halal olsun, Allah da bərəkətini verər, bərəkətli pul çox puldan daha xeyirlidir" anlayışı hakimdir. Belə düşünən tacirlərimiz çox olarsa, market və bazarlarımız əməl dəftərimizə xeyir işlərin yazıldığı məkanlara çevrilər.

Ticarət dedikdə ağıla ilk gələn tərəzidə doğru olmaqdır. Bu, o qədər önəmli məsələdir ki, Qurani-Kərimdə Şüeyb peyğəmbərin (ə) qövmünün məhz tərəzidə aldatdıqları üçün həlak edildiyi vurğulanmışdır. Uca Yaradan "Şüəra" surəsinin 181-183-cü ayələrində belə buyurmuşdur: **"Ölçüdə düz olun, (onu) əksildənlərdən olmayın! Düz tərəzi ilə çəkin! İnsanların haqqını azaltmayın!**

**(Camaatın malını əskiltməyin. Kimin haqqı nədirsə, onu da verin!) Yer üzündə fitnə-fəsad törətməyin”** [1].

**2. Ölçü və çəkidə aldatmağın günahı**

Tərəzidə aldadanlar ilk baxışdan çoxlu pul qazanmış kimi görünə bilərlər. Ancaq belə insanların malı artmaz, haram yolla əldə etdikləri qazancı rahat-rahat yeyə bilməzlər. Çox vaxt belə insanların başından müsibətlər əksik olmur. Təbii ki, bütün cəzaları da bu dünyada gözləmək düzgün deyil. Ya bu dünyada, yaxud da axirətdə Allah-Təala mütləq haqqı yerinə çatdıracaq. Bədəndə ruh nədirsə, ticarətdə dürüstlük odur. Ticarətdə doğru və dürüstlüyü qorumaq dinimizin zəruri məsələlərindən olduğu üçün Uca Yaradan bununla bağlı xüsusi surə nazil etmişdir. Həmin surənin adı – “əl-Mütəffifin” tərcümədə “ölçü və çəkidə aldadanlar” deməkdir. Surədə ölçü və çəkidə aldadanlara, mömin və əxlaqlı insanlara istehza edənlərə veriləcək cəzalardan bəhs edilir. Belə ki, sözügedən surənin ilk ayəsində Allah-Təala buyurur: **“Vay halına çəkidə və ölçüdə aldadanların!”** [1].

Surənin Mədinədə nazil olduğunu yazan bəzi təfsirşünaslar, o cümlədən Məhəmməd ibn Cərir ət-Təbəri (838-923), Carullah əz-Zəməxşəri (1074-1143) və Fəxrəddin ər-Razi (1149-1210) İbn Abbasdan belə nəql edirlər: “Peyğəmbər (s) Mədinəyə gəldikdə mədinəlilər tərəzidə aldadırdılar. O zaman bu ayələr nazil oldu və bundan sonra Mədinə tacirləri özlərini düzəltdilər” [3, s.58; 4, s.229; 5; 6; 7].

Surədə işlənmiş **“veyl”** sözü haqqında görkəmli təfsirşünas Cərir ət-Təbəri (838-923) yazır: “Ölçü və çəkidə aldadanlar qan və irinlərin axdığı Veyl dərəsinə atılacaqlar. Onlar insanlardan bir şey aldıqda dəqiq ölçü ilə ölçür və onlardan haqlarını tam olaraq alırlar. Ancaq insanlara vermək üçün bir şey ölçsələr və ya çəksələr, onların haqlarını əskik verirlər. Yoxsa onlar qiyamət günü yenidən diriləcəklərini düşünmürlərmi? Bu onların qorxuları üçün çox böyük bir gündür” [8, s.33].

“Veyl” sözü haqqında lüğətşünas alimlər yazırlar: “Veyl: Cəhənnəmdə qan və irin axınları, Cəhənnəm dərəsi və ya cəzanın şiddəti, pis, təəssüf, həlak olmaq, vay halınıza deməkdir. Qurani-Kərimdə də bu mənalarda işlədilib: **“Məgər Allahın köksünü (qəlbini) İslam üçün açmaqla Rəbbindən nur üzərində olan kəs (qəlbi möhürlənmiş kimsə kimi ola bilərmi)?! [Və ya: Məgər Allahın köksünü (qəlbini) İslam üçün açdığı kəs Rəbbindən bir nur üzərində deyilmi?!] Elə isə vay qəlbləri Allahın zikrinə (Qurana) qarşı sərt olanların halına! Onlar (haqq-yoldan) açıq-aydın azmışlar”** [1, “Zümər”, 22].

Qeyd etmək lazımdır ki, Qurani-Kərimdə **“veyl”** sözü çox böyük günah törətmiş şəxslər haqqında işlədilir. Məsələn, Allaha şərik qoşmaq ən böyük günah hesab edildiyindən Uca Yaradan müşriklər haqqında belə buyurur: **“(Ya Rəsulum!) De: “Mən də ancaq sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız bir olan Allahdır. Ona tərəf yönəlin və Ondan bağışlanmağınızı diləyin. Vay müşriklərin halına!”** [1, “Füssilət”, 6].

Bir gün Peyğəmbər (s) bazarda qida satan bir adama yaxınlaşaraq: “Alış-veriş necə gedir?”, - deyə soruşur. Sonra da əlini həmin adamın satdığı buğda çuvalının içinə salır. Çuvalın altındakı buğdalar nəm, üst tərəfdəkilər isə quru idi. Peyğəmbər (s) bunun səbəbini soruşur. Satıcı: “Yağış yağdı, bu səbədən belə oldu”, - cavabını verir. Bu cavabı eşidən Peyğəmbər (s) buyurur: “Müştərilərin görə bilməsi üçün nəm olan hissəni üzə çıxarsaydın, daha yaxşı olardı. Aldadan məndən deyil”. Bu xəbərdarlıq Allahı və Rəsulunu (s) sevən, axirətdə də mərhəmət görmək və şəfaətə nail olmaq

istəyən hər bir mömin üçün kifayət qədər təsirlidir. Müsəlman yalnız səccadə üzərində deyil, bazarda da, insanlarla məişət ünsiyyətində də İslamın gözəlliklərini nümayiş etdirməlidir, aldatmamalı və aldanmamalıdır.

Müştəri ilə xoş davranmaq da Peyğəmbərin (s) hədislərinin birində göstərilmişdir. Həmin hədisdə deyilir: *"Kim müştərinin geri gətirdiyi malı qəbul edərsə, Allah da qiyamət günü onun günahlarını bağışlayar"*. Onun bu hədisi İmam Əlinin (ə) rəftarında da özünü göstərmişdir. Belə ki, o həzrət bazarda gedərkən ət alan bir müştərinin qəssaba "bir az artıq ver" dediyini eşitmiş və "onun payını artır, çünki bu bərəkətli olmağa səbəb olar", - deyə buyurmuşdur.

Ticarətdə dürüstlük bir tərəfdən malı yalandan təriﬂəyərək alıcıya sırımamaqdırsa, digər tərəfdən də malın qüsurlarını gizlətməməkdir. Peyğəmbər (s) belə buyurmuşdur: *"Tacirlər günahkardırlar. Deyildi: "Ey Allahın rəsulu!* Məgər Allah alış-verişi halal etməmişdirmi?*" Peyğəmbər (s) buyurdu: "Bəli, halal etmişdir. Amma yalan danışan və yalan and içənlər günahkardırlar"* [9].

Digər hədisində isə belə demişdir: ***"Dürüst və əmanətdar tacir peyğəmbərlər, siddiqlər və şəhidlərlə birlikdədir"*** [6].

Ticarət qaydalarının başında şəriəti bilmək dayanır. Bunu izah edən İmam Əli (ə) hədislərinin birində belə bəyan edir: *"Ey ticarət əhli, əvvəl fiqh, sonra ticarət (bunu üç dəfə təkrar edir). And olsun Allaha, sələm bu ümmətin içində qarışqanın öz ağzında apardığı ruzidən də gizlidir. Andlarınıza əməl edin, tacirlər günahkardır, günahkar isə cəhənnəmlikdir, yalnız haqqı alıb, haqqı verənlərdən başqa"* [2].

Peyğəmbərimiz (s) tacirin aşağıdakı xüsusiyyətləri yerinə yetirməsini belə tövsiyə edir: *"Hər kəs alış-verişlə məşğul olursa, gərək beş xüsusiyyətə əməl etsin, əks halda, gərək ticarətdən əl çəkə. Bunlar: sələm, and içmək, eybi gizlətmək, satanda malı təriﬂəmək, alanda isə malı pisləməkdir"*.

Ticarətə təşviq Əhli-beyt imamlarının (ə) hədislərində də özünü göstərməkdədir. Belə ki, İmam Cəfər Sadiq (ə) belə buyurur: *"Ticarət ağılı artırar. Ticarəti tərk etmək ağılın aradan getməsinə səbəb olar"* [2].

Füzeyl ibn Yəsar deyir: *"Bir gün İmam Sadiqin (ə) yanına gəlib dedim: "Mən ticarəti tərk etmişəm"*. İmam (ə) buyurdu: *"Bunu etmə, dükanının qapısını aç, ətəyini genişləndir və Allahdan ruzi dilə!" [*10, s.170]. Həmçinin İmam Sadiq (ə) halal yolla var-dövlət toplamağa da təşviq edərək buyurmuşdur: *"Halaldan var-dövlət toplamayan adamda heç bir xeyir yoxdur. İnsan onunla üzünü ağ edir, borclarını ödəyir və qohum-əqrəbasını ziyarət edir"* [10, s.102].

Deməli, dinimiz ticarəti, alış-verişi heç vaxt qadağan etməmiş, əksinə, onu halal bilmiş və bunun üçün də müəyyən qayda-qanunlar qoymuşdur. Əgər qeyd edilmiş ayə və hədislərə diqqət yetirsək, məlum olacaqdır ki, ticarətlə məşğul olan şəxs gərək yalandan and içmək, eybi gizlətmək, satanda malı təriﬂəmək, alanda isə malı pisləmək kimi mənfi xüsusiyyətləri özündən uzaqlaşdırsın.

### 3. Alış-veriş ədəbi

Ticarət deyildikdə, ağıla yalnız satıcılar gəlməməlidir. Hər birimiz satıcı olmasaq da, alıcı kimi alış-veriş prosesində iştirak edirik. Alıcı kimi də qeyd olunan qaydalara uyğun olaraq alış-veriş etsək, savab qazanarıq. Bəzən nisyə mal alırıq, bəzən də nəyisə alanda xırda pulumuz çatmır, "sonra verərəm" deyərək dükandan ayrılırıq. Ancaq söz verdiyimiz vaxt başa çatsa da, borcumuzu ödəmirik. Əslində, alış-veriş qarşılıqlı dürüstlükdür. Bəzən də ola bilər ki, satıcının başı qarışar və

sizə qalıq olaraq artıq pul qaytarar. Alıcı kimi bunu aşkar etsək, mütləq geri qaytarmalıyıq. Bu, həm də satıcının alıcılara olan etimadını artırar.

Dinimizdəki ticarət mədəniyyətinə diqqət etdikdə məlum olur ki, müsəlmanın hər davranışı dürüst olmalıdır, heç kimin zərərə uğramasını istəməməlidir. Etdiyimiz iş kiçik bir alış-veriş kimi görünə bilər, ancaq unutmayaq ki, Yaradan bizim hər davranışımıza dəyər verir.

İslam iqtisadi sistemi ticarətin əsasını doğruluq və dürüstlüklə hər bir fərdə və ümumilikdə cəmiyyətə xidmət anlayışı üzərində qurmuşdur. Digər tərəfdən, İslamda vacib əməllərdən hesab olunan həcc və zəkat da zəngin olan möminin üzərinə düşür ki, bunlar da halal və qanuni yolla zəngin olmağa təşviq kimi göstərilə bilər.

Amma təəssüf hissi ilə qeyd edirik ki, müasir dövrümüzdə bəzi insanların ticarətdə qurduqları hiylə və fırıldaqların həddi-hüdudu yoxdur. O cümlədən sonsuz sərvət toplamaq həvəsi ilə infaq, zəkat və müxtəlif xeyir işlər görməkdən uzaqlaşmaq, kasıb, qərib, kimsəsiz, dul, yetim və ehtiyacı olanlara yardım etməmək də onların hüquqlarını tapdalamaq anlamındadır və böyük günahlardandır.

Ölçü və çəkidə aldatmağın böyük günahlardan olması haqda Məhəmməd ibn Əhməd əz-Zəhəbi (1274-1348) yazır: “Bu əməl oğurluğun, xəyanətin və haqsız mal yeməyin bir növüdür” [11, s.155]. Ona görə də alver edən şəxs, gərək alverin, gündəlik qarşıya çıxan halların hökmlərini öyrənsin. İmam Sadiqdən (ə) rəvayət olunur: “Alver etmək istəyən şəxs gərək onun hökmlərini öyrənsin. Əgər onun hökmlərini öyrənməzdən əvvəl alver etsə, batil və şübhəli müamilələrin vasitəsilə həlak olar” [12, s.270].

Həmçinin insan bir məsələni bilmədiyi üçün etdiyi alverin düzgün, yaxud batil olduğunu bilməsə, nə aldığı, nə də təhvil verdiyi maldan istifadə edə bilər. Üstəlik, məsələni öyrənməli, ya da hətta razılaşma yolu ilə olsa belə, ehtiyat etməlidir. Habelə malı olmayan və vacib xərcləri olan şəxs (ailə və uşağının xərcləri kimi) işləyib qazanc əldə etməlidir. Ailənin yaşayışını daha da firavan etmək, fəqirlərə əl tutmaq və bu kimi savab işlər üçün qazanc əldə etmək müstəhəbdir [12, s.270].

## Nəticə

Qeyd etdiyimiz ayə və hədislər ticarət mədəniyyətinin sağlam şəkildə həyata keçirilməsini, alıcı və satıcının hüquqlarının bərabər olduğunu bildirməklə yanaşı, həm də bu anlayışda olmayanların dünya və axirət cəzasına layiq olduqlarını bildirir. Həmçinin ayə və hədislər ticarət dövriyyəsini əlində saxlayanların ictimaiyyətə istədikləri kimi təzyiq etdiklərini və bununla da, böyük sərvətə sahib olmaq istədiklərini izah edir. Ona görə də Uca Allah bu sosial və iqtisadi sahənin mühüm tərkib hissəsi olan ticarətin, alış-verişin həyata keçirilməsində halallığın vacibliyini önə çəkir, digər tərəfdən ticarət zamanı əxlaqi göstərişlərə riayət edilməsinin zəruri olduğunu bəyan edir.

“Əl-Mütəffifin” surəsi ilə yanaşı, digər ayələr və hədisi-şəriflərin təhlili həm də onu göstərir ki, inanclı və əxlaqlı insanların mövqeyinə, xalqın kasıb və yoxsul təbəqəsinə qarşı xor, üstdən aşağı baxan, yalnız öz mövqeyinə güvənən, əllərindəki mal-mülkü Allah-Təala yolunda xərcləməyi özlərinə ar bilən mal-dövlət sahibi olan insanlar şiddətli əzaba düçar olacaqlar.

# ƏDƏBİYYAT


1. Bünyadov Ziya və Məmmədəliyev Vasim, (1991). Qurani-Kərim. Bakı: Azərnəşr.
2. əl-Küleyni, Məhəmməd bin Yaqub. əl-Üsul minəl-kafi. 8 cilddə. V c. Təhqiq: Əli Əkbər əl-Ğiffari. Tehran Heydəri.
3. ət-Təbəri, Məhəmməd bin Cərir. Camiül-bəyan an təvili ayil-Quran. 30 cilddə. XXX c. Misir: Mətbəətül-meyməniyə.
4. əz-Zəməxşəri, Carullah. Təfsirül-kəşşaf. Beyrut: Darül-mərifə.
5. ər-Razi, Fəxruddin. Təfsirül-Kəbir (Məfatihül-ğeyb). 32 cilddə. XXXI c. Darül-fikir.
6. ət-Tirmizi (1996), Əbu İsa. Sünənüt-Tirmizi. 6 cilddə. Mühəqqiq: Başir Əvvad Məruf. Darül-ğərbil-islam.
7. el-Kazvini (tarixsiz), İbn Mace. Süneni-İbn Mace tercemesi ve şerhi. 10 cilddə. Mütercim: Haydar Hatipoğlu. İstanbul: Kahraman neşriyat.
8. et-Taberi (tarixsiz), Ebu Cafer Muhammed bin Cerir. Taberi tefsiri. 9 cilddə. IX c. Terc: Aytekin Kerim ve Karakaya Hasan. İstanbul: Hisar Yayınevi.
9. əş-Şeybani, Əhməd bin Hənbəl. əl-Müsnəd. Mühəqqiq: Məhəmməd bin Əbdülqadir Əta. Beyrut: Darül-kutubil-ilmiyyə.
10. əl-Qummi, İbn Babaveyh. Mən la yəhzuruhül-fəqih. 4 cilddə. III c. Qum.
11. əz-Zəhəbi, Məhəmməd bin Əhməd. Böyük günahlar. Təxric və təhqiq edənlər: əl-Arnavut Şeyx Əbdülqadir, Abdullah Əmmar Əhməd. Azərbaycan dilinə tərcümə edən: Aydın Salehli.
12. Sistani, Seyid Əli. İzahlı şəriət məsələləri. Tərc: Məhəmməd Əli Mosuli. Bakı: I çap.
13. ən-Nəcəfi, əş-Şeyx Hadi. Movsuətu əhadisi-Əhlil-beyt (ə). 12 cilddə. VIII c. Beyrut: Daru ihyait-türasil-ərəbi, I çap.
14. https://www.almaany.com

Ибрагим Кулиев

# ТОРГОВАЯ КУЛЬТУРА ПО ХАДИСАМ


## АННОТАЦИЯ

Наша священная религия, как и во всех сферах человеческого общества, также принесла прекрасные и ценные правила в области торговли и сочла необходимым отразить их в жизни общества. Верные сподвижники Пророка (с.г.в.) и его Ахль аль-Байта (а) всегда придерживались этих законов, принесенных исламом в их повседневную жизнь, независимо от того, были они продавцами или покупателями. Чтобы все это знать, достаточно обратиться к достоверным источникам хадисов. Таким образом, когда Пророк (с.г.в.) торговал со своей будущей женой Хадиджой (р.а.), он продемонстрировал свою деловую культуру самым высоким способом и благодаря этой честности завоевал её симпатию и любовь. В одном из авторитетных источников рассказывается, что еврейский торговец наблюдал за Пророком (с.г.в.) издалека, когда он продавал некоторые из своих товаров на рынке в Дамаске. Купец-еврей видел, что он никогда не беспокоил других во время покупок, не клялся и никогда не давал своему покупателю возможности клясться.

Торговец-еврей, наблюдавший за Пророком (с.г.в.) издалека, подошел к нему, чтобы лучше узнать его, посмотреть на товары, которые он продавал, и узнать их цены. Он начал спрашивать у Пророка (с.г.в.) цену на товары, которые он продавал, и вести переговоры. После сделки еврейский купец узнал, что Пророк (с.г.в.) был из Мекки. Он попросил Пророка (с.г.в.) присягнуть Лату и Уззе, самым известным идолам Мекки. Услышав это, улыбающееся лицо Пророка (с.г.в.) внезапно изменилось. Он поднял брови, повысил голос и сказал: «Вы хотите, чтобы я поклялся неодушевленным предметам, которые я не верю и не ценю? Я никогда не буду клясться тем идолам, которых я не люблю», - сказал он.

Ibrahim Guliyev

# TRADE CULTURE ACCORDING TO HADITH


## ABSTRACT

Our sacred religion, as in all spheres of human society, also brought in wonderful and valuable rules in the field of commerce and considered it necessary to reflect them in the life of society. The faithful companions of the Prophet (s) and his Ahl al-Bayta (a) have always adhered to these laws brought by Islam into their daily lives, regardless of whether they were sellers or buyers. For evidence, it is enough to refer to the reliable sources of hadiths. Thus, when the Prophet (s) traded with his future wife Khadija (r), he demonstrated his business culture in the highest possible way and through this honesty won her sympathy and love. One of the authoritative sources tells that a Jewish merchant watched the Prophet (s) from afar as he sold some of his wares in a market in Damascus. The Jewish merchant saw that he never bothered others while shopping, did not swear, and never gave his buyer the opportunity to swear.

A Jewish merchant who watched the Prophet (s) from afar approached him to get to know him better, to look at the goods he was selling, and to find out their prices. He began asking the Prophet (s) the price of the goods he was selling and negotiating. After the deal, the Jewish merchant learned that the Prophet (s) was from Mecca. He asked the Prophet (s) to take an oath by Lat and Uzza, the most famous idols of Mecca. Upon hearing this, the smiling face of the Prophet (s) suddenly changed. He raised his eyebrows, raised his voice, and said, “Do you want me to swear to inanimate objects that I don’t believe or value? I will never swear to those idols that I do not love” - he said.